*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   24 avqust 2016-cı il   № 65 (2080)   Qiyməti 25 qəpik


*Cəbhə bölgəsindən reportaj*

# Torpaq, uğrunda ölən varsa, Vətəndir

*Şahidi olduğumuz aprel döyüşləri təkcə Azərbaycan cəmiyyətinə deyil, dünya ictimaiyyətinə bütün aydınlığıyla sübut etdi ki, torpağımızın hər qarışı uğrunda can əsirgəməyən mübariz ruhlu bir nəsil formalaşıb. Vətən müqəddəsdir, ona görə ki, onu qorumağı qarşısına məqsəd qoyan insanlar ölümündən qorxmadan döyüşə atılırlar. Vətəni sadəcə sevmək yetərli deyil. Onu canından artıq sevməlisən. Daşını, qayasını sevməlisən, gülünü-çiçəyini sevməlisən. O zaman üstündə gəzdiyin, suyunu içdiyin, çörəyini yediyin, havasını udduğun torpaq da Vətən olacaqdır. Ölməz şairimiz Məmməd Araz əbəs yerə deməyib ki, "Vətən mənə oğul desə, nə dərdim, mamır olub qayasında bitərdim". Ustadımızdan həmişə söz düşəndə qürur duyuram ki, gəncliyimdə onunla bir kollektivdə çalışmaq mənə də nəsib olub.*



Aprel döyüşlərindən sonra ezamiyyətdə olduğum hərbi hissələrdə söhbətləşdiyim, müsahibə aldığım bütün əsgərlər bir ağızdan deyirlər ki, bizlər də kaş həmin döyüşlərin iştirakçıları olaydıq. Düşmənə gücümüzü sübut edən aprel savaşı bir həqiqəti aydınlaşdırdı: Azərbaycan gəncliyi Ali Baş Komandanın döyüş əmrinin intizarındadır. Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev də bütün tədbirlərdə bəyan edir ki, üzləşdiyimiz Qarabağ münaqişəsinin sülh yolu ilə həlli baş tutmaycaqsa, Azərbaycan xalqı torpaqlarımız uğrunda döyüşməyə hazırdır.

Əgər müharibə baş verəcəksə, qalibiyyət bizimdir. Çünki son illərdə Azərbaycanın həm güclü hərbi potensialı yaranıb, həm də orduda yüksək döyüş əhval-ruhiyyəsi formalaşıb. Bir-birinin ardınca davam edən irimiqyaslı təlimlər ordunun şəxsi heyətinin döyüş vərdişlərini möhkəmləndirib.

Təlimi ordunun akademiyası hesab edən sərkərdələr qətiyyən yanılmırlar, axı döyüş şəraitində keçirilən təlimlər şəxsi heyətin bütün bacarıqlarını üzə çıxarır. Ən başlıcası isə şəxsi heyətə döyüş ruhu aşılayır. Hər təlimdən uğurla çıxan əsgər və zabitlərimiz qazandıqları vərdişləri sübuta yetirmək üçün fürsət axtarırlar. Əlbəttə, belə yüksək əhval-ruhiyyədə olan döyüşçülərin qarşısında düşmən heç vaxt dirəniş göstərə bilməz.

Dağlıq bölgələrimizdən birində yerləşən "N" hərbi hissəsinin şəxsi heyəti də dövlətimizin orduya göstərdiyi qayğıya cavab olaraq döyüş hazırlığını gündən-günə artırır. Əsas bölmələri yüksəkliklərdə yerləşən bu hərbi hissənin komandir heyəti relyefə uyğun olaraq əsgərlərin təbii şəraitə dözümlülüyünü də artırmağa ciddi önəm verir. Bu məqsədlə şəxsi heyətin qida və geyim təminatı, sağlamlıq durumu diqqət mərkəzində olan əsas məsələlərdəndir.

Dağlara doğru gedirik. Sirli-soraqlı ana təbiətimizin yaratdıqlarına tamaşa etdikcə düşünürəm ki, Azərbaycanın təbiəti nə qədər zəngindir. Sərt aşırımlarda, zirvələrin ətəklərində yol gedə-gedə maşın yolu yaradan insanların gücünə, qüdrətinə alqış deyirəm. Doğrudan da, insan əlləri möcüzələr yaratmağa qadir imiş.

Yayın qızmarında Azərbaycanımızın aran bölgələrindən olan çobanlar qoyun sürülərini bu dağlara gətirirlər. Daha heç kimin canında qorxu-hürkü yoxdur, hamı yaxşı bilir ki, bu dağların məğrur keşikçiləri var. Söhbətləşdiyim sadə peşə sahibləri də inamla bildirirlər ki, zirvələrdə qərar tutan əsgər oğulların hünər və rəşadəti ilə qorunur bu dağlar. Bir azdan onlarla yaxından tanış olacaqsınız.

(Ardı 3-cü səhifədə)



Xalq artisti gənc əsgərlərlə görüşüb

4-cü səhifədə



Silahlı Qüvvələrdə tolerantlıq və multikulturalizm həftəsi davam edir

5-ci səhifədə



Olimpiya Oyunları başa çatdı

6-cı səhifədə



"Müharibə mənim də taleyimdən keçdi"

7-ci səhifədə

# Hərbi Dəniz Qüvvələrində komanda-qərargah təlimləri başlayıb



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə və təsdiq edilmiş döyüş hazırlığı planına əsasən, avqustun 22-də Hərbi Dəniz Qüvvələrində komanda-qərargah təlimləri başlayıb.*

Hərbi Dəniz Qüvvələri bazasına gələn Müdafiə Nazirliyinin rəhbərliyi hərbi hissənin qərargahı qarşısında ucaldılmış ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül dəstəsi qoyaraq, öz ehtiramlarını ifadə ediblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi Dəniz Qüvvələrinin hərbi gəmilərin daimi bazalanma məntəqəsində olub, gəmilərin və şəxsi heyətin döyüşə hazırlıq səviyyəsini yoxlayıb.

Hərbi Dəniz Qüvvələri komandanı vəzifələrini icra edən 1-ci dərəcəli kapitan Hicran Rüstəmzadə qüvvə və vasitələrin tam döyüşə hazır olma dərəcəsinə gətirilmə qərarını məruzə edib.

Komanda Məntəqəsinə gələn Müdafiə nazirinə təlimlərdə iştirak edən gəmilərin ümumi hazırlığı, Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub hissəsində əməliyyat şəraiti və Hərbi Dəniz Qüvvələrinin idarə olunması barədə operativ məlumat verilib.

Hərbi Dəniz Qüvvələri, Hərbi Hava Qüvvələri, eləcə də Raket və Artilleriya Qoşunlarının qüvvə və vasitələrinin cəlb olunması ilə keçirilən təlimlərin əsas məqsədi Xəzər dənizinin əməliyyat zonasında enerji infrastrukturunun mühafizəsi üzrə birgə fəaliyyətlərin planlaşdırılmasından ibarətdir.

Bir neçə mərhələdə icra olunacaq təlimlər avqustun 25-də sona çatacaqdır.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



## *Nümunəvi xidmət*

## "Şəhidlərimizin uğrunda can verdikləri torpaqlar etibarlı qorunur"

- Günlər qarşısıalınmaz bir qaydada, yağış damcıları kimi ötüb keçir. Bu minvalla istilər başa çatmaq üzrədi. İsti yay günləri isə bizim vəzifəmizə - Vətəni qorumağımıza mane ola bilmir, - deyir əsgər Rəşad Əliyev.

Gənc əsgərlə Gədəbəyə ezamiyyətim zamanı tanış oluruq. Ağdam rayonunda doğulub boya-başa çatan Rəşad ermənilərin xalqımıza qarşı törətdikləri vəhşiliklər barəsində çox şey bildiyini deyir.

- Doğulduğum rayon cəbhə xəttində yerləşir. Hamı kimi döyüşlərdə mənim də qohumlarım, yaxınlarım iştirak edib. Ermənilərin tarix boyu əsassız torpaq iddiaları, xalqımıza qarşı törətdikləri vəhşiliklər bizə, bütün Azərbaycan gəncliyinə yaxşı məlumdur. 1988-ci ildən başlamış Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə ən müdhiş, faciəli hadisələrdən biri Qarabağın ən qədim insan məskənlərindən Xocalıda baş vermiş soyqırımdır. Bu, əsl soyqırım idi. Xocalıda öldürülmüş 613 nəfərdən 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri qoca insanlar olub. Faciədə 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 uşaq isə valideyinlərindən birini itirmişdir. Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, üzlərinin dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yarılmışdır. Ermənilər hətta meyitləri də təhqir etmişlər. Ermənilərin vəhşiliklərini nə qədər saysaq, bitməz...



Hər birimiz bunları bilirik. Şəhidlərimizin, amansızca qətlə yetirilən körpələrimizin və qanı Vətən torpağı üçün axmış hər bir şəxsin qısasını alacağımız günü gözləyirik. Şəhidlərimizin uğrunda can verdiyi torpaqlar etibarlı qorunur. Mütləq o torpaqlara da qayıdacağıq. Torpaqlarımızı azad etdikdə şəhidlərimizin ruhu dincələcək, vəhşiliklə qətlə yetirilən ahıllarımızın ruhu "sizlər bunu bacardınız, sizinlə fəxr edirik" - deyəcək.

Bütün əsgərlərin nizam-intizamlı, vətənpərvər olduğunu qeyd edən baş leytenant İltifat Ağayev qumbaraatan əsgər Rəşad Əliyevin döyüş postuna yeni gəlməsinə baxmayaraq tez bir zamanda şəraitə uyğunlaşdığını qeyd edir.

- Amerikalı mühəndis Edvard A.Mörfi deyir ki, "müharibədə etdiyin hər bir hərəkət səninçün ölümcül ola bilər, hətta heç nə etməməyin də". Müharibədə ölən və məğlub olan tərəf olmamağın üçün daim öyrənməli, tutduğun vəzifənin öhdəsindən gəlməlisən. Döyüşdə qələbə naminə təlimlərdə tər tökərək, komandirlərin öyrətdiklərinə dəqiqliklə əməl etməlisən, - deyir taqım komandiri.

Komandir və əsgərlərin rəğbətlə öz sıralarına qatdıqları və nizam-intizamından, Vətən sevgisindən tam razı qaldıqları əsgər Rəşad Əliyevin xidmətinin bundan sonra da uğurlu olacağına inanırıq.

**Baş leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu"
foto M. MÖHBALIYEVİNDİR**

# Misirin "El-Vatan" qəzetində Azərbaycanın inkişafı barədə müsahibə dərc edilib

*Azərbaycan Respublikasının Misirdəki konsulu Emil Rəhimov bu ölkənin nüfuzlu "El-Vatan" qəzetinə müsahibə verib.*

Misir ilə Azərbaycan arasında diplomatik əlaqələrin 1990-cı illərin əvvəllərində formalaşdığını, 1994-cü ildən Misirdə Azərbaycan səfirliyinin fəaliyyətə başladığını, ümummilli lider Heydər Əliyevin Misirə tarixi səfəri, bağlanan müqavilə və sazişlər sayəsində ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə qurulmasını qeyd edən konsul bu əlaqələrin böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Azərbaycan və Misirin turizm imkanlarından danışan E.Rəhimov ölkəmizin turizm potensialı haqqında ətraflı məlumat verib.

Azərbaycanın xarici siyasətinə toxunan diplomat ölkəmizin ədalət tərəfdarı olduğunu, beynəlxalq münaqişələrdə prinsipial mövqe nümayiş etdirdiyini bildirib. O, Azərbaycanın terrorun bütün forma və təzahürlərini pislədiyini və beynəlxalq aləmdə terrorizmə qarşı mübarizəyə öz töhfəsini verdiyini vurğulayıb.

Daha sonra diplomat bu yaxınlarda Bakıda keçirilən Rusiya, İran və Azərbaycan prezidentlərinin üçtərəfli görüşündən söz açıb və region ölkələrin iqtisadiyyatına töhfə verəcək "Şimal-Cənub" dəhlizi barədə məlumat verib.

Diplomat Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışaraq, Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe üzündən sülh danışıqlarının indiyədək fayda vermədiyini və Azərbaycanın işğal olunmuş ərazilərində təbii sərvətlərin və maddi mədəniyyət abidələrinin Ermənistan tərəfindən talandığını xüsusi vurğulayıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Torpaq, uğrunda ölən varsa, Vətəndir



(Əvvəli 1-ci səhifədə)

Mənə çox çətin, keçilməz görünən dağ yolu, nəhayət ki, bizi mənzil başına çatdırır. Qayalıqları bənzədən dağ yamacları ilə bir qədər piyada getməli oluruq. Birdən zabitin amiranə səsi eşidilir. Gün ərzində döyüş növbəsində baş verənlərlə bağlı məruzə edən gənc zabitlərdən biri - Ülvi Xələfli ilə qısa söhbətə qatılıram. Zabitə görə, bölmələrə təyin edilən əsgərlər qısa vaxtda xidməti şəraitə uyğunlaşırlar.

## “Hər kəs üzərinə düşən vəzifənin müqəddəsliyini dərk edir”

Uca zirvələrdə döyüş postlarına doğru qalxdıqca aşağı mövqelərlə müqayisədə iqlimin sərtləşdiyini hiss edirəm. Amma əldə silah Vətənimizin keşiyində dayanan əsgərlərimizin hamısını xoş əhval-ruhiyyədə görməkdən qürurluyam. Bölmə komandiri söhbətimizdə deyir ki, burada ölkəmizin bütün bölgələrindən olan əsgərlər xidmət edirlər.

- Gənclərin yüksək fiziki və psixoloji hazırlığı onlara belə sərt iqlim şəraitində xidmət etməyə imkan verir, - deyə



zabit söhbətinə davam edir. - Çətin, təhlükəli mövqelərdə xidmət etmək gənclərə cəsurluq, mərdlik, dostluq kimi mənəvi keyfiyyətlər aşılayır. Ən başlıcası isə hər bir əsgər üzərinə düşən vəzifənin müqəddəsliyini dərk edir və məsuliyyət hissi ilə xidmət edir. Azərbaycan gənci Vətən qarşısındakı vəzifə borcunun nə qədər şərəfli olduğunu yaxşı bilir.

Zabit haqlıdır, bu gün yüksək mənəvi dəyərlər ruhunda yetişən gənclərimiz Vətənə sədaqətlə xidmət edir, Vətən sevgisini hər şeydən uca tuturlar.

## “Erkən yaşlarımda erməni vandalizminin şahidi olmuşam”

Bölmədə həmsöhbət olduğum zabitlərdən biri də ötən əsrin sonlarına yaxın Qərbi Azərbaycan torpaqlarından zorla didərgin salınmış Elmar İsayevdir. Elə onu zabit olmağa ruhlandıran səbəblərdən biri də düşmənlərimizə olan nifrətidir. "Hesab edirəm ki, yer kürəsində erməni millətçiləri kimi vəhşiliklər törətməyə qadir olan şəxslər tapılmaz. Hələ Sovetlər Birliyində, xalqlar dostluğu ideyasının cəmiyyətdə devizə çevrildiyi bir vaxtda yaşamağımıza baxmayaraq, erməni daşnakları bəd niyyətlərini həyata keçirməkdən çəkinmirdilər. Kiçik yaşlarımdan onların haqsız əməllərinin, vəhşiliklərinin, bir sözlə, erməni vandalizminin şahidi olmuşam. İndi onların yaşadıqları torpaqlar tarixən bizim xalqa məxsus olub. Çox deyil, cəmi iki əsr bundan əvvəlki dövrə qədər ermənilərin torpaqları olmayıb. Dünyanın hər yerinə səpələnmiş bu bədnam millətin nümayəndələri yalnız himayədarlarının vasitəsilə dövlət yaratmağa nail olublar. Azərbaycanda dövlətçilik tarixi isə ötən minilliklərə gedib çıxır".

Zabit deyir ki, döyüş növbəsindən sonra asudə vaxtlarda əsgərlərlə xalqımızın tarixi keçmişi, qədimliyi barədə geniş söhbətlərimiz olur. Azərbaycanda dövlətçilik tarixinin müxtəlif dövrləri barədə söhbətlərə əsgərlərin maraqla diqqət yetirdiklərini deyən zabit bildirir ki, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı ordunun döyüş qabiliyyətinin yüksəlməsində əhəmiyyətli amillərdən biridir. "Əsgərlər nəyin, hansı məqsədin uğrunda mübarizə apardıqlarını çox yaxşı bilirlər. Onlar başa düşürlər ki, özgənin bir qarış torpağında gözümüz yoxdur, yalnız qanuni ərazilərimizi işğaldan azad etmək uğrunda döyüşməyə hazırıq".

## Onun atası da gizir olub

Bir vaxtlar cəbhə bölgəsində əsgərliyini həyata keçirmiş gizir Tural Əliyevlə tanışlıqdan öyrənirəm ki, onun atası da ilk ordu quruculuğu illərində - Azərbaycan Silahlı Qüvvələrində gizir kimi xidmət edib.

- Cəbhə xəttində xidmət edəndə artıq qəti qərara gəlmişdim ki, atamın yolunu davam etdirəcəm, - deyir gizir.- Hərbçi sənətini seçmək müqəddəs peşə sahibi olmaq deməkdir, axı Vətənə xidmətdən şərəfli heç nə yoxdur. Fikrimi atama bildirəndə yamanca sevinmişdi, "Daha bundan sonra səninlə fəxr etməyə haqqım var", demişdi. 2013-cü ildən bu dağlardayam, cəbhə xəttində xidmətin bütün xüsusiyyətlərinə dərindən bələd olduğum üçün bölmənin şəxsi heyətinə də öz təcrübəmi böyük həvəslə aşılayıram.

Gizir söhbətində deyir ki, gənc döyüşçülərin Vətənə bağlılığı, mənəvi dəyərləri onu sevindirməyə bilməz. Bu gün Azərbaycanda elə bir ailə tapılmaz ki, taleyi orduya bağ-



lanmasın. İndi gənclərimiz hərbi peşələrə böyük maraq göstərirlər və qəhrəmanlıq, kişilik peşəsini seçmələri ilə fəxr hissi duyurlar. Bununla da böyüməkdə olan nəsil ulu öndərimiz, müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin irsinə, ideyalarına sadiq olduqlarını sübut edirlər.



## Bir ailədə üç döyüşçü

Döyüş postlarından birində Lənkəran bölgəsindən hərbi xidmətə çağırılmış Nəcəfəli Mehdizadə ilə tanış oluram. Bölmə komandirinin sözlərinə görə, Nəcəfəli təyin olunduğu döyüş vəzifəsində özünü tam doğrulda bilib.

- Lənkəranlı qəhrəmanlarımızdan kimi tanıyırsan? - sualıma əsgər tərəddüd etmədən iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun adını iftixarla çəkir. İkinci Dünya müharibəsinin əfsanəvi döyüşçülərindən olduğunu, onun ömür və döyüş yolundan bəhs edən filmə dəfələrlə tamaşa etdiyini deyir. "Orta məktəbə qədəm basdığımız ilk gündən müəllimlərimiz bizə vətənpərvərliyi, Vətəni sevməyi aşılayıb. Qəhrəmanlardan söz düşəndə məşhur tankçı generalın - Həzi Aslanovun adını çəkiblər və onun həyatından nümunə götürməyi öyrədiblər. Amma həqiqətən də aprel döyüşləri göstərdi ki, bugünkü cəmiyyətimizdə qəhrəmanlıq, fədakarlıq göstərmək əzmində olan gənclərin sayı çoxdur".

Qumbaraatan vəzifəsində olan əsgər deyir ki, ailədə üç qardaşdılar. Böyük qardaşı Əziz 2012-ci ildə Tovuz bölgəsində cəbhə xəttindəki bölmələrin birində əsgəri borcunu başa vurub. Sonbeşik qardaşı da yaxın vaxtlarda əsgərliyə gedəcək. Lənkəranlı döyüşçüyə görə, üzərində boy atdığımız Vətənə övlad borcunu şərəf və məsuliyyətlə yerinə yetirmək hər kəsin mənəvi haqqıdır.

Zabit Elmar İsayev növbəti postda müşahidə aparan əsgər Elnur Səfərovu da nümunəvi, vətənpərvər döyüşçü kimi təqdim edərək deyir: - Əslində burada xidmət edən əsgərlərin hamısı nümunəvi döyüşçüdür, çünki ekstremal bir şəraitdə ən müqəddəs vəzifəni - Vətəni qorumaq vəzifəsini yerinə yetirirlər.

Öyrənirəm ki, Elnur 15 ay əvvəl Beyləqan rayonundan orduya çağırılıb. "Doğulduğum bölgə ilə müqayisədə bura çox səfalıdır, gözəl təbiəti var. Qəflətən mənə sual versələr ki, Vətən sevgisi sənin üçün nə deməkdir, heç fikirləşmədən deyərdim ki, Vətən anamızdır, 9 ay bətnində bəsləndiyim anam mənə nə qədər əzizdirsə, Vətənim də onun qədər müqəddəsdir".

İnandırım ki, bir neçə günlük ezamiyyətimdə bu yerlərdən, qüdrətli dağlarımızın mətin keşikçilərindən ayrılmaq istəmirəm. Hələ növbəti yazılarım olacaq və sizi böyük ürək sahibi olan döyüşçülərimizlə tanış edəcəm.

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan Ordusu", fotolar M.MÖHBALIYEVİNDİR**

# Xalq artisti gənc əsgərlərlə görüşüb





***Hərbi qulluqçuların döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsində mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinin də rolu çox böyükdür.***

Bu işin əhəmiyyətini nəzərə alan Müdafiə Nazirliyi ölkəmizin bütün yaradıcılıq təşkilatları ilə mütəmadi olaraq əlaqə saxlayır, xüsusi plana əsasən silsilə tədbirlər həyata keçirilir.

Gəncə Dövlət Dram Teatrının aktyoru, Respublikanın Xalq Artisti Alim Məmmədovun gənc əsgərlərlə görüşü şəxsi heyətdə xoş təəssüratlar oyadıb.

Əməkdar İncəsənət Xadimi, polkovnik Abdulla Qurbani Xalq artistinin həyat və yaradıcılığı haqqında məlumat verərək onun Azərbaycan teatrı və kinosu tarixində mühüm yer tutduğunu nəzərə çatdırıb.

Qeyd olunub ki, on altı yaşından səhnə fəaliyyətinə başlayan aktyor "Bir cənub şəhərində", "Qara volqa", "Ölülər" və başqa filmlərdə, eləcə də Azərbaycan və dünya klassiklərinin, çağdaş dramaturqların tamaşaya qoyulan bir çox əsərlərində uğurla çıxış etmiş və aparıcı aktyor kimi xidmətləri həmişə yüksək qiymətləndirilmişdir.

Xalq Artisti Alim Məmmədov Müdafiə Nazirliyinin yerli icra hakimiyyəti orqanları ilə birlikdə təşkil etdiyi kütləvi vətənəpərvərlik tədbirlərində də yaxından iştirak etmiş, ona həvalə edilən obrazların öhdəsindən layiqincə gəlmişdir. Silahlı Qüvvələrimizin şəxsi heyəti A.Məmmədovu Nizami Gəncəvi, Cavanşir, Cavad xan, Mücirəddin Beyləqani, generallar Əliağa Şıxlinski, Səmədbəy Mehmandarov və başqa şəxsiyyətlərin obrazlarının mahir ifaçısı kimi tanıyır.

Xalq artisti gənc əsgərlər qarşısında çıxış edərək hərbi xidmət illərini yada salıb, yaratdığı obrazların dili ilə onları salamlayıb, monoloqlar, vətənpərvərlik şeirlərindən nümunələr söyləyərək əsgər və zabitləri ruhlandırıb, gələcək xidmətlərində uğurlar qazanmağı arzulayıb və onları maraqlandıran sualları cavablandırıb.

Polkovnik-leytenant Elşən Salayev dəvətlərini məmnuniyyətlə qəbul edərək gənc əsgərlərlə görüşə gələn və onlarda xoş əhval-ruhiyyə yaradan sənətkara şəxsi heyət adından dərin minnətdarlığını bildirib, Müdafiə Nazirliyinin xətti ilə nəşr olunmuş "Ruhumuzun qələbəsi naminə" adlı kitab-albomu Xalq Artistinə xatirə olaraq hədiyyə edib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# “Rio-de-Janeyroda Azərbaycanın Dövlət himninin səsləndirilməsi qürurvericidir”




***"Olimpiadada qızıl medal qazanmağım, Rio-de-Janeyroda Azərbaycanın Dövlət himninin səsləndirilməsi qürurvericidir. Bunlar izaholunmaz hisslərdir."***



Bu sözləri 2016-cı il Rio-de-Janeyro Yay Olimpiya Oyunlarında qızıl medal qazanan Azərbaycan taekvondoçusu Radik İsayev bildirib.

Radik İsayev deyib: "Mən hər döyüşə çıxanda bacardığımın ən yaxşısını etmək üçün çalışıram. Rəqiblərimin hamısını tanıyırdım. Olimpiadadan medalsız qayıtmamağı düşünürdüm. Məqsədim mükafatçılar sırasına düşmək idi. Amma finala çıxdım, qızıl medal qazandım. Finaldakı rəqibimi məğlub etdim. Qələbəmi isə azarkeşlərimə və anama həsr edirəm. Anam, mənim medallarımı yığır".

Azərbaycan Prezidenti İlham Əliyev bu qələbədən sonra zəng edərək Olimpiya çempionunu şəxsən təbrik edib.

Radik İsayev bir çox dünya və Avropa çempionatlarının, eləcə də, beynəlxalq turnirlərin qalibi və mükafatçısıdır. O, Azərbaycanın taekvondo üzrə yığma komandasının heyətinə 2012-ci ilin sonlarında daxil edilib. Növbəti il isə Meksikada keçirilən dünya çempionatında bürünc mükafata sahib olub. Bir il sonra isə Bakıda təşkil edilən Avropa çempionatının qızıl medalını qazanıb. 2015-ci ildə Cənubi Koreyada hərbçilərin VI dünya oyunlarında üçüncü, həmin il Meksikadakı komandalararası dünya kubokunda birinci yeri tutub. Ötən il Rusiyada keçirilmiş böyüklər arasında dünya çempionatında birinci yerə çıxıb.

R.İsayev hazırda milli komandamızın liderlərindən biridir. Dünya Taekvondo Federasiyasının Olimpiya reytinqinə əsasən, üçüncü pillədə qərarlaşmaqla, "Rio-2016" Yay Olimpiya Oyunlarına vəsiqə qazanıb.

"Bakı-2015" birinci Avropa Oyunlarında qızıl medal qazanan Radik İsayev Azərbaycan Prezidentinin 29 iyun 2015-ci il tarixli sərəncamına əsasən, "Şöhrət" ordeni ilə təltif edilib.

Azərbaycan taekvondoçusu Radik İsayev Rio-de-Janeyrodakı XXXI Yay Olimpiya Oyunlarının çempionu adını qazanaraq xalqımıza qələbə sevinci bəxş edib.

Olimpiya zirvəsinədək çətin yol keçən Radik İsayev səkkizdəbir final mərhələsində qazaxıstanlı Ruslan Japarovu 11:2 hesabı ilə məğlub edib. Daha sonra Cənubi Koreya idmançısı, Pekin Olimpiadasının qızıl medalçısı Ça Donqminə 12:8 hesabı ilə qalib gələrək növbəti mərhələyə vəsiqə qazanıb. Təmsilçimiz yarımfinal mərhələsində Mahama Ço (Böyük Britaniya) ilə döyüşü də qələbə ilə başa vuraraq Olimpiya Oyunlarının finalına yüksəlib.

Radik İsayev həlledici döyüşdə Afrika Oyunlarının qalibi nigerli Abdulrazak İssufu Alfaqa ilə qarşılaşıb. Qarşılaşmanın ilk hissəsində hesab açılmayıb. İkinci hissədə rəqibin başına zərbə endirməyə imkan tapan təmsilçimiz 3:0 hesabı ilə önə keçib. İkinci hissə bu hesabla başa çatıb. İdmançımız sonuncu raundda ikinci dəqiq zərbə ilə hesabına daha üç xal əlavə edib - 6:0. Nigerli idmançının gücü yalnız 2 xal qazanmağa yetib. Beləliklə, final döyüşünü 6:2 hesabı ilə başa vuran dünya və Avropa çempionu Radik İsayev "Rio-2016"da Azərbaycanın hesabına ilk qızıl medalı yazdırıb. Bu həm də Azərbaycan taekvondosu tarixində Olimpiya Oyunlarında ilk qızıl medaldır.

Olimpiya çempionu Radik İsayevin şərəfinə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, Dövlət bayrağımız ucaldılıb.

**AZƏRTAC-ın
materialları əsasında**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirdə iştirak edir

Avqustun 22-dən 26-dək Latina şəhərində (İtaliya) NATO-nun üzv və tərəfdaş ölkələrinin qərargah zabitləri üçün "Qüvvələrin hərəkətinin və açılmasının idarəedilməsi sistemi" (ADAMS) üzrə kurs keçirilir.

Tədbirdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edirlər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***22 avqust 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 10 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan, Şavarşavan, İcevan rayonunun Vazaşen kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Fərəhli kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Füzuli rayonunun Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***23 avqust 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 17 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Baş Qərvənd, Yusifcanlı, Füzuli rayonunun Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Silahlı Qüvvələrdə tolerantlıq və multikulturalizm həftəsi davam edir

*Müdafiə Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 2016-cı - Multikulturalizm ili üçün birgə tədbirlər planına əsasən, "Milli-mənəvi, mədəni dəyərlərimizi yad təsirlərdən qoruyaq!" devizi altında keçirilən tolerantlıq və multikulturalizm həftəsi davam edir.*



Tədbirlərdə Müdafiə Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmiləri, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndələri, tanınmış ilahiyyatçılar iştirak edirlər.

Həftənin təşkili və keçirilməsinə məsul olan Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini polkovnik Abdulla Qurbani bildirib ki, xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tolerantlıq və multikulturalizm sahəsində həyata keçirdiyi ardıcıl siyasətin nəticəsidir ki, ölkəmiz artıq dünyada tolerantlığı dəstəkləyən dinlər və mədəniyyətlərarası dialoqun aparıcı qüvvəsinə çevrilib.




Möhtərəm Prezidentimizin 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan olunması barədə sərəncamı bütün xalqımız kimi Silahlı Qüvvələrin şəxsi heyəti tərəfindən də böyük rəğbətlə qarşılanıb. Həqiqətən müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq Azərbaycan əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı bir diyar kimi tanınır. Silahlı Qüvvələr cəmiyyətimizin bir hissəsi olduğundan burada da tolerantlıq mühitinin, multikultural dəyərlərin təbliği şəxsi heyətin təlim-tərbiyəsində mühüm əhəmiyyət kəsb edir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov çıxışında nəzərə çatdırıb ki, bu gün beynəlxalq, regional və ölkələr səviyyəsində ən çox müzakirə olunan məsələlərdən biri tolerantlıqdır. Dövlət başçımızın da dəfələrlə qeyd etdiyi kimi, tolerantlıq bizim həyat tərzimizdir, Azərbaycan xalqının əsrlər boyu formalaşan və çoxları üçün örnək olan xarakterik xüsusiyyətidir.

Müxtəlif tarixi dövrlərdə, elə indinin özündə də ölkəmizin ərazisində məskunlaşmış dini, etnik qruplar burada heç vaxt özlərini yad hesab etməyib, hətta yerli əhali ilə qaynayıb-qarışıb, qohumluq əlaqələri yaradıblar. Azərbaycanda yaşayan bütün xalqların sevinci də, kədəri də birdir.

Ötən əsrin əvvəllərindən başlayaraq Vətənimizdə yaşayan türklər, ləzgilər, tatlar, yəhudilər, talışlar, kürdlər, ruslar və digər xalqların nümayəndələri erməni daşnaklarına qarşı mübarizədə azərbaycanlılarla bir səngərdə vuruşublar. Quba rayonundakı Qanlı dərə bu dostluğun, bu qardaşlığın bariz nümunəsidir. Daşnak qulduru Amazaspın qoşunlarına qarşı bu dərədə gedən qanlı vuruşlarda neçə-neçə xalqın qanı bir-birinə qarışıb. Onların törəmələri bu gün Azərbaycanın ərazi bütövlüyü uğrunda, torpaqlarımızın işğaldan azad edilməsi naminə yenə də bir bayraq altında, bir amal uğrunda birləşiblər. Çünki müstəqil Azərbaycan bu torpaqda yaşayan bütün xalqların Vətənidir və bu torpağı qorumaq hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur.

Polkovnik-leytenant Rasim Manafov şəhidlik zirvəsinə ucalan Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən yəhudi Albert Aqarunovun, rus İqor Makeyevin, ahısqa türkü İsgəndər Aznaurovun, belarus Anatoli Davidoviçin, ləzgi Fəxrəddin Musayevin və bir çox xalqların nümayəndələrinin Qarabağ döyüşlərində göstərdikləri rəşadət və şücaət nümunələrindən danışaraq vurğulayıb ki, bu gün Silahlı Qüvvələrimizdə onların yüzlərlə, minlərlə davamçıları vardır. Məhz bu dostluq, bu qardaşlıq, bu birlik aprel döyüşlərində də bir daha öz təsdiqini tapıb.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə bölgə şöbəsinin müdiri Asif Əliyev, Qafqaz Müsəlmanları İdarəsinin Goranboy və Naftalan şəhərləri üzrə səlahiyyətli nümayəndəsi Anar Orucov bu tədbirlərin xüsusilə ordu gənclərinin həyatında müstəsna rol oynayacağını qeyd edərək bildiriblər ki, bu kimi tədbirlər şəxsi heyətin həm döyüş ruhunun, həm vətənpərvərlik hissinin, həm də mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi istiqamətində öz müsbət təsirini göstərəcəkdir.



Bakı şəhərindəki Məşədi Dadaş məscidinin axundu Hacı Şahin Azərbaycan Silahlı Qüvvələrində həqiqi hərbi xidmətdə olduğu vaxtları xatırlayaraq ordumuzun bu gün daha güclü, daha qüdrətli, əsgər və zabitlərin isə daha intizamlı, daha peşəkar olduğundan, qarşıya qoyulmuş döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirdiklərindən, aprel döyüşlərində Azərbaycan əsgərinin uzun illərdən sonra xalqımıza qələbə sevinci yaşatdıqlarından din xadimlərinin də böyük qürur duyduqlarını qeyd edib.

Hacı Şahinin bəzi gənclərin aldadılaraq guya müsəlman qardaşlara kömək etmək adı ilə cihadı, şəhid olmaq həvəsilə digər ölkələrə aparılmasına kəskin etirazı və "Bu gün şəhid olmaq, cihada qalxmaq istəyən buyurub Qarabağa gəlsin, əsl Kərbəla Qarabağdadır!" deməsi şəxsi heyət tərəfindən alqışlarla qarşılanıb.

Bir neçə gün ərzində birlik, birləşmə və hərbi hissələrdə tolerantlıq və multikulturalizm həftəsi çərçivəsində "Ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsi əsasında milli-mənəvi dəyərlərin qorunub saxlanması və inkişafının istiqamətləri", "Dini ekstremizmlə mübarizədə hərbi qulluqçuların yeri və rolu", "Müstəqil Azərbaycan Respublikası mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlığın ünvanıdır", "İslamda şəhidlik anlayışı", "İntihar insanın Yaradana qarşı üsyanıdır", "Din və Vətən müdafiəçilərinin əxlaq kodeksi" və s. mövzularda seminar, dəyirmi masa, disputlar, din xadimləri ilə görüşlər, söhbətlər təşkil olunub.

Hərbi qulluqçulardan rus Yuri Kurşinov, avar Oktay Hacıyev, ləzgi Sənan Allahverdiyev, tat Natiq Heybətov, talış Hamlet Nizamzadə və yəhudi Emin Razilov çıxış edərək Azərbaycanın vətəndaşı olduqlarından və bu diyarın müdafiəsində dayandıqlarından fəxrlə danışıblar. Onlar qonaqları əmin ediblər ki, bundan sonra da mehriban dostluq, qardaşlıq şəraitində Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcək, Azərbaycan uğrunda Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olacaqlar.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşları tərəfindən hazırlanmış "İşğal altındakı tarixi-dini abidələrimiz", "Azərbaycanda tolerantlıq ənənələri", "Tolerantlıq - bildiklərimiz və bilmədiklərimiz", "İslamda Vətən və dövlət sevgisi", "Şəhid - şəhidin qanı yerə tökülmür, cəmiyyətin damarlarına axır" adlı kitabların təqdimatı şəxsi heyətin böyük marağına səbəb olub və dövlət komitəsi tərəfindən əsgər kitabxanalarına kitab dəstləri hədiyyə edilib.

Silahlı Qüvvələrdə tolerantlıq və multikulturalizm həftəsi davam edir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

# Olimpiya Oyunları başa çatdı

## *Azərbaycan idmançıları Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarında 18 medal qazandı*



***Braziliyanın Rio-de-Janeyro şəhərindəki "Marakana" stadionunda XXXI Yay Olimpiya Oyunları təntənəli mərasimlə başa çatdı. Nağıl kimi uşaqdan böyüyə hamını ovsunlayaraq 17 gün davam etmiş daha bir Olimpiada tarixə qovuşdu. Bağlanış mərasimində Olimpiya Oyunlarının vətəni sayılan Yunanıstanın dövlət bayrağının qaldırılması və dövlət himninin səsləndirilməsindən sonra BOK-un bayrağı endirilib. Olimpiya bayrağı 2020-ci ildə növbəti Olimpiadaya ev sahibliyi edəcək Tokio şəhərinin meri xanım Yuriko Koikoya təqdim olunub və Yaponiyanın dövlət himni səsləndirilib.***

Cənubi Amerikada keçirilən ilk Olimpiya Oyunları olan "Rio-2016" bir sıra digər məqamlarla yadda qalıb. Rio-de-Janeyronun dörd rayonunda - Deodoro, Barra, Kopakabana və Marakanada 17 gün davam edən Olimpiadada, AZƏRTAC-ın verdiyi məlumata görə, 306 yarış keçirilib və ümumilikdə 2102 medal sahiblərinə təqdim olunub. XXXI Olimpiadada rekord sayda - 206 ölkədən 11 mindən çox



idmançı mübarizə aparıb. İştirakçı 206 ölkədən başqa, Olimpiya qaçqın idmançılar komandası da mübarizəyə qoşulub. Olimpiya bayrağı altında mübarizə aparan bu komandanın tərkibində 10 idmançı yer alıb.

XXXI Yay Olimpiya Oyunları Azərbaycan yığması üçün uğurlu olub.

XXXI Yay Olimpiya Oyunlarına əvvəlki olimpiadalarla müqayisədə Azərbaycan yığma komandası daha geniş tərkibdə - idmanın 18 növü üzrə 56 idmançı (57 lisenziya) ilə qatılıb. Bu, ötən Olimpiya Oyunları ilə müqayisədə 4 idman növü çoxdur. Ölkəmiz triatlon, kamandan oxatma, velosiped və kanoe-slalom idman növlərində ilk dəfə təmsil olunub. Olimpiadada ölkəmizi təmsil edən 56 idmançıdan 36-sı ilk dəfə Olimpiya Oyunlarının iştirakçısı olub. Rio-de-Janeyroda Azərbaycan 3 hakimlə güləş, gimnastika və boks yarışlarında da təmsil olunub.

Azərbaycan "London-2012" Yay Olimpiya Oyunlarında 10 (2 qızıl, 2 gümüş, 6 bürünc) medal qazanmışdı. Rio-de-Janeyroda isə komandamız medalların sayına görə daha yaxşı nəticə göstərdi. Pelenin vətənində idmançılarımız 18 (1 qızıl, 7 gümüş və 10 bürünc) medal qazandı.

Olimpiya Oyunlarında ilk medalı Azərbaycana cüdo yarışlarında Rüstəm Orucov gətirdi. 73 kiloqram çəki dərəcəsində çıxış edən R.Orucov finaldakı rəqibinin güclü olduğunu deyib: "Olimpiadaya hazırlaşarkən yaponiyalı idmançının finala çıxacağını güman edirdim. Ona uyğun texnika üzərində işlədik. O da öz üzərində hazırlaşdığı üçün görüşdə üstünlüyə sahib oldu".

Rüstəmin komanda yoldaşı 60 kiloqram çəki dərəcəsində çıxış edən Orxan Səfərov yarışda fəal mübarizə apararaq yarımfinala çıxmağı bacarmışdı. Ancaq bu mərhələdə qazaxıstanlı Yeldos Smetova uduzdu. İstedadlı Azərbaycan idmançısının bürünc medal uğrunda görüşdə yaponiyalı Naohisa Takotaya uduzması onu medalsız qoydu.

Ümumiyyətlə, Rio-de-Janeyroda hətta qızıl medal qazanmaq iqtidarında olan bir neçə idmançımız məhz yarımfinalda uduzaraq, istəyinə çata bilmədi. Əgər onlar öz potensiallarını gerçəkləşdirə bilsəydilər, Azərbaycan idmançılarının medallarının sayı və əyarı daha çox və yüksək ola bilərdi.

XXXI Yay Olimpiya Oyunlarında yeganə qızıl medalı - taekvondoçu Radik İsayev qazandı. Sərbəst güləşçilər Toğrul Əsgərov, Xetaq Qazyu-



mov, boksçu Lorenzo Sotomayor, cüdoçular Rütəm Orucovla Elmar Qasımov, qadın güləşçi Mariya Stadnik və kanoeçi Aleksandr Demyanenko



yalnız final mübarizələrində məğlub oldular və gümüş medal qazandılar.

Taekvondoçu Patimat Abakarova, Milad Beiqi Harçeqani, boksçu Kamran Şahsuvarlı, güləşçilər Sabah Şəriəti, Rəsul Çunayev, Nataliya Sinişin, Hacı Əliyev, Cəbrayıl Həsənov, Şərif Şərifov, kaneo və kayakda İnna Osipenko-Radomskaya isə bürünc medala sahib çıxdılar.

Yarışların nəticələri hələ idman mütəxəssisləri tərəfindən geniş təhlil olunacaq.

Olimpiadada Azərbaycan təmsilçiləri arasında komanda olaraq ən yaxşı nəticəni taekvondoçular göstəriblər. Yarışa 4 idmançı ilə yollanan millimiz 3 medal qazanıb. Radik İsayevin liderlik etdiyi yığmamız bir çox ilkə imza atıb.

Belə ki, taekvondoçularımız bu Olimpiadada ilk dəfə geniş heyətlə iştirak edib. Həmçinin qadın idmançımız Patimat Abakarova komandaya ilk Olimpiya medalını (bürünc) qazandırıb. Kişilər arasında ilk Olimpiya medalını isə Milad Beiqi Harçeqani (bürünc) qazanıb. Həm taekvondo yığmamızın, həm də Olimpiya heyətimizin yeganə qızıl medalına isə, yuxarıda qeyd etdiyimiz kimi, Radik İsayev sahib çıxıb.

Boks yarışlarında da Azərbaycan idmançıları ilk dəfə Olimpiadada final döyüşü keçiriblər. Qeyd edək ki, millimiz Rio-de-Janeyroda 10 kişi, 1 qadın boksçu ilə təmsil olunurdu. Lorenzo Sotomayor gümüş medal qazanmaqla, daha bir ilkə imza atdı və boks həvəskarlarını sevindirdi. Ancaq özbəkistanlı idmançı ilə final qarşılaşmasında, boks mütəxəssislərinin də qeyd etdiyi kimi, Lorenso üstün olsa da, qələbəni, təəssüflər olsun ki, rəqibinə verdilər. Ümumiyyətlə, XXXI Yay Olimpiya Oyunları həm də mübahisəli hakim qərarları ilə yadda qaldı və qeyri-obyektivliyə görə, bir neçə boks referisi yarışlardan kənarlaşdırıldı.

Millimizin bayraqdarı - 81 kiloqram çəki dərəcəsində yarışan Teymur Məmmədovdan və sonuncu dünya çempionu Elvin Məmişzadədən qızıl medal gözləyirdik. Ancaq onların hətta medalçılar sırasına düşə bilməməsi bizi məyus etdi. Azərbaycanın medal ümidlərindən olan ağır çəkili Məhəmmədrəsul Məcidov rinqdə zədələndiyi üçün həkimlərin təkidi ilə yarışı davam etdirə bilmədi və Olimpiya medalı qazana bilmədi. Dünya çempionu olmuş Albert Səlimov da Rio-de-Janeyroda uğursuzluğa düçar oldu. Ancaq Kamran Şahsuvarlının rinqə çıxaraq qətiyyətlə döyüşməsi, bir sıra adlı-sanlı rəqiblərini mübarizədən kənarlaşdırması və bürünc medala sahib çıxması hamını sözün yaxşı mənasında heyrətləndirdi.

Braziliyaya 14 idmançı ilə yollanmış güləş yığmamız isə gümüş və bürünc olmaqla 9 medal qazanmağı bacardı. Ən böyük medal ümidimiz güləşçilərimizə idi. Onların hər biri Yay Olimpiya Oyunlarında qızıl medal qazanmağa layiq idmançı idi. Ancaq ikiqat dünya çempionumuz, Rio-de-Janey-



roda bürünc medal qazanmış Hacı Əliyevin qeyd etdiyi kimi, Olimpiya oyunlarında potensialdan əlavə şansın olması da önəmli məqamdır. Yaponiyalı idmançı ilə güləşərkən çətin fəndə düşməsi nəticəsində adlı-sanlı pəhləvanımız, ikiqat Olimpiya mükafatçısı, dünya və Avropa çempionu Rövşən Bayramov uduzaraq medal uğrunda mübarizəni dayandırdı. Rusiyalı Ənvər Geduyevlə güləşərkən sərbəst güləşçimiz Cəbrayıl Həsənova qarşı hakimlər yarımfinalda ədalətsiz



davranmasaydılar, finala çıxar, ən azı gümüş medalı özünə təmin edərdi.

Tam heyətlə təmsil olunan sərbəst güləş yığmamız 2 gümüş və 3 bürünc medal qazanaraq olimpiadalar tarixində bir ilkə imza atıb. Qazanılan medalların sayına görə, yığmamız bütün komandaları qabaqlayıb. Altı pəhləvan ilə təmsil olunan komandalardan



heç biri 5 medal qazana bilməyib. Dünya Güləş Birliyinin ənənəvi qaydada tərtib etdiyi komanda sıralamasında da sərbəst güləş yığmamız birinci yeri tutub. Komanda hesabında 42 xal toplayan yığmamız İran (35 xal), ABŞ (32 xal) və Rusiyadan (31 xal) öndə qərarlaşıb.

Azərbaycan Olimpiada tarixində ilk dəfə avarçəkmə idman növündə də medal qazanıb.

Yarışların keçirildiyi sonuncu gün üç idmançımız -boksçu Lorenso Sotomayor, sərbəst güləşçilərimiz Toğrul Əsgərov və Xetaq Qazyumov finalda mübarizə aparırdı. Qızıl medal qazana bilməsələr də, onların gümüş medala layiq görülməsi hər birimizi sevindirdi.

Ümumilikdə, ABŞ-nin birinci olduğu medal sıralamasında Azərbaycan Rio-de-Janeyroda 39-cu olub. Ancaq yuxarıda qeyd etdiyimiz kimi, idmançılarımızın bir çoxu ən yüksək əyarlı medal qazanmağa layiq və yaxın idi.

Qarşıdan 2017-ci ildə Azərbaycanda keçiriləcək İslam Həmrəyliyi Oyunları gəlir. İnanırıq ki, idmançılarımız bu yarışlarda dəfələrlə Azərbaycan bayrağını qaldırmağı və himnimizi səsləndirməyi bacaracaqlar.

**"Azərbaycan Ordusu"**

Ordu və cəmiyyət

# “Müharibə mənim də taleyimdən keçdi”



*Bugünkü qonağımız yazıçı-jurnalist Təranə Vahiddir. Təranə xanım Laçın rayonunun Mişni kəndində dünyaya göz açıb. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. "Azərbaycan gəncləri", "Panorama", "Gün səhər" və "Mədəniyyət" qəzetlərində işləyib. Dövrü mətbuatda mindən artıq yazısı çap olunub. 2005-2009-cu illərdə İctimai Televiziya və Radio Yayımları Şirkətində redaktor və böyük redaktor vəzifələrində çalışıb. Hazırda "Ulduz" jurnalında baş redaktor müavini vəzifəsində işləyir. Həsən bəy Zərdabi mükafatına layiq görülüb. "Cənnətdən yuxarı..." hekayələr, esselər və "90 imza" publisistik kitablarının müəllifidir. "Cənnətdən yuxarı..." kitabı bu il Türkiyədə işıq üzü görüb və böyük maraqla qarşılanıb.*

**- Təranə xanım, 1992-ci ildə ermənilər Laçını ələ keçirdilər. İşğal günlərini necə xatırlayırsınız?**

- İnsanın kodu onun dünyaya gəldiyi torpağa hesablanıb. Əgər insan doğulduğu ocaqdan ayrılırsa, genetik yaddaşını, taleyini, dünənini və bugününü itirmiş olur. O gün... yaddaşımda qiyamət günü kimi qalıb. Elə bil kəndimizdə qiyamət qopmuşdu. Topların gurultusuna alışmış adamların gözündə son günlər qəribə təlaş vardı. Xilas ola biləcəyimiz yeganə Qubadlı yolu hər an bağlana bilərdi. Hər kəs uşaqların, qadınların, qocaların mühasirədə qalacağından qorxurdu. Axı iki ay əvvəl Xocalı faciəsi baş vermişdi. Gecələr göndərilən avtobuslarla qadınlar, qocalar, uşaqlar kənddən çıxarıldı. Kəndimizin mərd oğulları isə axıracan döyüşdülər. Amma nə yazıq ki, sonda rayonumuz işğal olundu.

**- Laçının adı çəkiləndə hansı hissləri keçirirsiniz?**

- Laçın ürəyimin şah damarıdır. Həyat yolum oradan başlayıb və bütün arzularımın son məskəni də oradır. Mənə görə dünyanın ən ağırtaxtalı dağları, ən sərin bulaqları, ən zərif çiçəkləri, ən dadlı və təmiz balı, ən əzəmətli palıd meşələri Laçındadı. Kəndimiz dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşirdi. Bu uçqar dağ kəndində insanla təbiət arasında isti bir doğmalıq vardı.

Bir dəfə yaz ayında yaylağa - Çalbayıra getmişdim. Bu yer elə bir hündürlükdə yerləşirdi ki, əlini uzatsan, buludlara çatardı. Elə bil, çiçək dənizindəydim. Bu yer böyük Yaradanın ən gözəl əsərlərindən biri kimi yaddaşıma həkk olunub. Sonralar belə gözəl mənzərəni heç yerdə görmədim, amma o yeri bir də görəcəyimə inanıram.

Laçın adı çəkilində Azərbaycan aşıq ədəbiyyatında bayatı janrının memarını - Sarı Aşığı xatırlayıram.

Mən aşiq o yar mənim,
Qəm bağrım oyar mənim.
Məkkəmdir, Mədinəmdir,
Qibləmdir o yar mənim.

**- Yaxın qohumlarınızdan Qarabağ müharibəsində iştirak edənlər olubmu?**

- Əslində yüz illər bir kənddə yaşayan insanların hamısı bir-biriylə qan qohumudur. Əmim polkovnik-leytenant Mahmud Məmmədov rayonumuzdan çıxan ilk peşəkar hərbçilərdən olub. Zamanında Ukraynanın Lvov şəhərində hərbi siyasi məktəbdə təhsil alıb. Hərbi sahədə yüksək vəzifələrdə çalışıb. Qarabağ hadisələri başlayan vaxtlarda əmim artıq istefaya cıxmışdı. 70-ə yaxın yaşı vardı. Vətənin ağır günlərində, bir gün də olsun, torpağından ayrılmadı. Laçın işğal olunandan sonra da əsgər və zabitlərdən köməyini əsirgəmədi. Bizim balaca kəndimizdən torpaq uğrunda canını fəda verən şəhid oğullarımız var. Qarabağ, Laçın işğaldan azad olan gün, şəhidlərimizin, dünyadan Vətən həsrəti ilə köçən doğmalarımızın da ruhları şad olacaq.

**- Mərhum şairimiz Qabilin Azərbaycan əsgərinə müraciətlə yazdığı məşhur şeirində bir şah misra var: "Ümid sənədir, ancaq, Azərbaycan əsgəri!" Yaradıcı insan kimi bəs siz necə fikirləşirsiniz?**

- Xalq şairi Qabilin yaradıcılığını, demək olar ki, başdan ayağa oxumuşam. "Ümid sənədir, ancaq, Azərbaycan əsgəri!" şeiri ümiddən yoğrulub. Azərbaycan əsgərinə, özümə inandığım qədər inanıram. Vətənimizdə şəhid məzarları bu ölkənin qürurudur və fəxarətidir. Oğullarımız "Torpaq, uğrunda ölən varsa, Vətəndir" həqiqətini canları bahasına sübut etdilər. Bundan böyük fədadkarlıq olarmı?

**- "Cənnətdən yuxarı..." kitabınız ədəbi ictimaiyyətə yaxşı tanışdır. Müharibə mövzusu yaradıcılığınızdan qırmızı xətlə keçir. "Tapılmayan torpaq", "Nənəm, müharibə və itən vaxt", "Vağzaldakı qarı", " 93-cü ilin qışı" ən təsirli hekayələrdəndir.**

- Müharibə torpağından ayrı düşən bir milyon insan kimi mənim də taleyimdən keçdi. Kitablardan oxuduğum, filmlərdə gördüyüm müharibə səhnələrindən daha dəhşətlisini həyatda gördüm. Bu hekayələrin qəhrəmanları gerçək qəhrəmanlardır. Sadəcə mən onların obrazlarını ümumiləşdirib ədəbiyyata gətirməyə çalışdım. Hər kəs yazdığına əvvəlcə özü inanmalıdır. Əgər sən qəhrəmanının yaşantıları və hissləri ilə yaşamasan, kimsə yazdıqlarına inanmayacaq. Yüz illərdi deyirlər ki, ədəbiyyat həyatın güzgüsüdür. Ancaq mən belə düşünmürəm. Güzgü yalnız olanları əks etdirir, ədəbiyyatsa canlıdır, sözlər hərəkət edə bilir, pıçıldaya bilir, insanı ovqata kökləyə bilir.Yaxmaq ilahi andı, yaşananları öz ruhundan, qanından, qəlbindən və ağlının süzgəcindən keçirib yazacaqsansa, o yazı ilə hər kəsi təsirləndirə biləcəksən. Bax, ədəbiyyatın ən böyük missiyası budur.

**- Yeqin növbəti kitablarınızda yenə də bu mövzunu davam etdirəcəksiniz?**

- Əslində mən Qarabağ mövzusunda tarixi roman yazmağı düşünürəm. Amma necə alınacaq, indidən heç nə deyə bilmərəm. Yaradıcılıq yeganə sahələrdəndir ki, onu əvvəlcədən planlaşdırmaq, proqnozlaşdırmaq olmur. Ancaq Qarabağ mövzusu məni ən çox düşündürən mövzulardan biridir və bir yazar olaraq xalqımızın taleyindən keçən bu mövzuya biganə qala bilmərəm.

**- Fikrinizcə, Qarabağ müharibəsi mövzusu istər poeziyamızda, istərsə də nəsrimizdə necə işıqlandırılır?**

- Hər kəs bacardığı qədər cəhd edir. Adətən ədəbiyyat hadisələrə daha uzaqdan baxmağı xoşlayır. Xüsusilə, bu, nəsrə aiddir. İkinci dünya müharibəsindən uzun illər keçəndən sonra müharibə mövzusunda şah əsərlər yarandı. Qarabağ müharibəsi hələ bitməyib, başa çatmayıb, Qarabağ mövzusunda yaxşı əsərlər var, ancaq bu kifayət deyil. Biz haqq səsimizi dünyaya çatdırmaq üçün Qarabağ mövzusunda yazılmış əsərləri dünya dillərinə çevirib yaymalıyıq. Türkiyədə "Cənnətdən yuxarı..." kitabımın imza günündə gənclər, tələbələr Qarabağ mövzusunda yazdığım hekayələr barədə mənə çoxlu suallar verirdilər. Bu mənada ədəbiyyat böyük missiya daşıyır.

**- Aprel döyüşləri gedən günlərdə hansı hisslər keçirirdiniz?**

- 23 ildə ondakı qədər ümidli olmamışdım. Yolda, izdə, metroda üz-gözündən işıq yağan insanlar görürdüm. Amma ən təsirli səhnəni evimizdə gördüm. Bir səhər gördüm ki, anam yır-yığış edir, Laçına getməyə hazırlaşırdı. O ümid gec-tez bizi doğma torpaqlarımıza aparacaq. Ümid varsa, qələbə də olacaq.

**- Çalışdığınız "Ulduz" jurnalında əsasən gənclər çıxış edir. Elə oxucularınız da gənclərdən ibarətdir. Jurnalınızın səhifələrində gənclərin vətənpərvərlik hisslərini gücləndirmək üçün yazılar dərc olunurmu?**

- Yaradıcı insan hər şeydən əvvəl vətənpərvər olmalıdır. İstedadının dərəcəsindən asılı olmayaraq. Şükürlər olsun ki, gənclərimizdə vətənpərvərlik hissi yüksəkdir. "Ulduz" jurnalinin qapısı istedadlı gənclərin üzünə hər zaman açıqdır. Redaksiyamıza gətirilən yaxşı yazılara müəlliflərdən daha çox biz sevinirik və sevə-sevə yazılarını çap edirik.

**- Zabit və əsgərlərimizə ürək sözlərinizi, arzularınızı bildirərdiniz.**

- Belə bir kəlam var: "Müharibəni axmaqlar başlayır, igidlər davam etdirir, ağıllılar qurtarır!" Başqa bir kəlamda isə belə deyilir: "Qələbə yalnız güclülərə yox, həm də səbrli və bacarıqlı olanlara qismət olur!" Zabitlərimizə, əsgərlərimizə və hər birimizə tezliklə bu sevinci, bu qələbəni arzulayıram.

**Söhbəti qələmə aldı:**
**Vahid MƏHƏRRƏMOV**

# Xəbərlər:
## hadisələr, faktlar

### Qaziantepdə terror aktı nəticəsində ölənlərin 22-si uşaqlardır



Türkiyədə toy mərasimində törədilən partlayış nəticəsində həlak olan 53 nəfərin azı 22-si yaşı 14-dən az olan uşaqlardır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan terror aktında 12-14 yaş arasında olan "canlı bombadan" istifadə olunduğunu bildirib.

Xatırladaq ki, partlayış avqustun 20-də Türkiyənin cənubunda yerləşən Qaziantep şəhərində açıq havada keçirilən toy mərasimi zamanı törədilib. Ən son məlumata görə, hadisə nəticəsində ölənlərin sayı 53 nəfərə çatıb. Hazırda müalicəsi davam edən 66 yaralıdan 14-nün vəziyyəti ağırdır.

### Qazaxıstanda terror aktı planlaşdıran 4 nəfər həbs edilib



Qazaxıstan Milli Təhlükəsizlik Komitəsinin (MTK) əməkdaşları tərəfindən avqustun 18-i aparılan xüsusi əməliyyat zamanı ölkədə terror aktı planlaşdıran radikal qruplaşmanın dörd üzvü həbs edilib.

Qazaxıstan və Qırğızıstan vətəndaşlarından ibarət qrupun üzvlərindən əldəqayırma partlayıcı hazırlamaq üçün istifadə olunan komponentlər və dini-ekstremist materiallar müsadirə olunub.

### Çində dünyanın ən uzun şüşə körpüsü açılıb



Avqustun 20-də Çinin Xunan əyalətində yerləşən "Zhangjiajie" milli parkında dünyanın ən uzun şüşə körpüsünün rəsmi açılışı olub.

Uzunluğu 430 metr və eni 6 metr olan piyada körpüsü 300 metr hündürlükdə inşa olunub. Körpünün döşəməsi üçlaylı şəffaf şüşədən hazırlanıb.

İnşaatçıların sözlərinə görə körpüdə eyni zamanda 800 nəfər insan dayana bilər. Lakin turistlər park və körpünü ziyarət etmək üçün əvvəlcədən qeydiyyatdan keçməlidir. İyul ayında körpünün etibarlı olduğunu yoxlamaq məqsədi ilə onun üzərindən 2 ton ağırlığında yük maşını keçib.

### Moldova “Milli Ordunun 25 ili” yubiley medalının hazırlanmasını maliyyələşdirəcək



Moldova Prezidenti Nikolaye Timofti "Milli Ordunun 25 ili" yubiley medalını təsis edib və onun hazırlanmasının maliyyələşdirilməsini təmin etməyi Müdafiə Nazirliyinə tapşırıb.

Medal Silahlı Qüvvələrin qartal görkəmində embleminin qabarıq təsviri ilə diametri 30 millimetr olan qızılı girdə medalyondan ibarətdir. O, plankaya ortasından sarı zolaq keçən göy rəngli lentlə bərkidilir. Mükafatın ümumi hündürlüyü 78 millimetrdir. Moldova Prezidentinin fərmanına görə, bu medalla hərbi iş sahəsində xüsusi xidmətlərinin əlaməti olaraq və Milli Ordunun 25-ci ildönümünün qeyd edilməsi münasibətilə Müdafiə Nazirliyinin və onlara tabe idarələrin hərbi qulluqçuları və mülki şəxsləri təltif olunurlar.

### Ukraynalılar supergüllə ixtira ediblər



"Siletto Ukrayna" şirkəti atıcı silah üçün istənilən zirehi deşib keçə bilən yeni güllə hazırlayıb.

Ukrayna ordusu bu cür patronları ən yaxın vaxtda əldə edə biləcək. Bu cür güllə BMP və BTR-in, habelə düşmən piyadasının ön zirehini deşə bilər. Çəkisi 13 qram olan bu güllə mil formasındadır. Müharibə vaxtı patronlar hədəfi məhv etməlidir.

**AZƏRTAC-ın materialları əsasında**

*Nümunəvi xidmət*

# Peşəkar sürücü



*Bu yazını dahi Azərbaycan şairi Nizami Gəncəvinin misraları ilə başlamaq istəyirəm.*

*Bir elmi öyrənmək istədikdə sən,*
*Çalış ki, hər şeyi kamil biləsən.*
*Kamil bir palançı olsa da insan,*
*Yaxşıdır yarımçıq papaqçılıqdan.*

Bəli, həyatda uğur qazanmaq, cəmiyyətə yararlı vətəndaş olmaq, işlədiyin müəssisədə hörmət qazanmaq üçün seçdiyin peşəni kamil bilməlisən. Fərqi yoxdur, hansı sahədə çalışırsan, əsas odur ki, peşənin sirlərini dərindən öyrənəsən.

Elvin də öz peşəsinin kamil bilicisi olan Vətən oğullarındandır. Dağlar qoynunda yerləşən Gədəbəy rayonuna ezamiyyətim zamanı onu yaxından tanıdım. Kiçik çavuş Elvin Ələkbərov bir ildən çoxdur ki, hərbi hissədə sürücü vəzifəsində xidmət edir. 2009-2011-ci illərdə əsgəri xidmətini başa vuran bacarıqlı sürücü yenidən ordu sıralarına qayıdaraq sevdiyi peşəsi ilə xidmətini davam etdirib.

Budur, hərbi hissə komandirindən son təlimatları aldıqdan sonra kiçik çavuş Ələkbərov sükan arxasına əyləşir və maşın tərpənir. Son mənzilə çatana qədər təhlükəli yollar bizi gözləyir. Sıx meşələr, çaylar, təpələr, dağlar... Kiçik Qafqaz dağlarının uca zirvələrinə qalxırıq, yolların sərt döngəli, daşlı-kəsəkli olması ilə yanaşı, yol boyu ətrafımızı bürüyən duman sürücünün məsuliyyətini daha da artırır. Təkərin altında qalan daşların xışıltısı, ətrafa baxanda gördüyüm mənzərə bir anlıq ehtiyatsızlığın nəyə səbəb olacağını açıq-aşkar hiss etdirir. Aşırımları keçəndə sanki aşağı yuvarlanacağımı hiss edirəm. Lakin sürücünün peşəkarlığı bizdə rahatlıq yaradır. Sürücü təcrübəsi və bacarığı qorxulu düçüncələrimizə son qoyur. Bu dağlara yaxşı bələd olduğunu deyən sürücü, çətin yolları hər gün gedib-gəldiyini vurğulayır. Bizi ən qısa zamanda döyüşçülərimizin görüşünə çatdıracağını deyir.

...Döyüş postundan qayıtmışıq. Elvinlə görüşmək, ona minnətdarlıq etmək üçün hərbii hissənin maşın parkına gedirəm. Sürücü maşına qulluq edir. Uzun yol qət etdikdən sonra maşının mühərrikinə göz gəzdirir, yağının, suyunun qaydasında olub-olmadığını yoxlayır, bir sözlə, hər bir detalına diqqət yetirir. Maşına elə qayğı göstərir ki, onu işindən ayırmaq istəmirəm. Yaxınlaşdığımı gördükdə əl saxlayır.

- İşini çox sevirsən, Elvin?

- Hər sahədə uğur qazanmağın sirlərindən biri gördüyün işi sevərək həyata keçirməkdir, - deyir. - Sürücülük peşəsinə olan marağım uşaqlıqdan formalaşıb. Qismət elə gətirdi ki, hərbi formanı geyib, hərbi maşının sükanına əyləşdim. Həm Vətənə, həm də peşəmə olan sevgim işimə bağlılığımı daha da artırır. Şanslıyam ki, həm arzusunda olduğum peşəyə yiyələnmişəm, həm də Vətənimizə xidmət edirəm.

Hər addımda Azərbaycan Ordusunun maddi-texniki təminatının yüksək səviyyədə olduğunun şahidiyik. Müasir texnika və maşınlar hərbçilərimizin istifadəsinə verilib. Lakin texnika və maşınlar nə qədər saz və işlək vəziyyətdə olsalar da, onları idarə edənlər texniki xüsusiyyətlərini bilməli, onlara vaxtı-vaxtında qulluq etməlidirlər. Sürücülük səriştəsi olan hər kəs hər hansı texniki nasazlığı yerindəcə aradan qaldırmağı bacarmalıdır. Kiçik çavuş Elvin Ələkbərov kimi!

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

## Əhməd Diyab: Olimpiadanı yunanlar deyil, misirlilər icad ediblər



*Adətən belə hesab edirlər ki, Olimpiya oyunlarının baniləri yunanlardır. Əslində isə bu Oyunları qədim misirlilər icad ediblər və olimpiya yarışlarının ilk təşəbbüsçülərinin məhz misirlilər olduğunu təsdiq edən arxeoloji faktlar var. Avstriyanın Klaqenfurt Universitetinin alimi, heroqliflər üzrə ekspert Əhməd Diyab bu barədə Misirin "Əl-Əhram" internet nəşrinə məlumat verib.*

Onun sözlərinə görə, Misirin cənubundakı Əl-Minya şəhərindəki məqbərələrdə indiyə qədər salamat qalmış freskalarda qədim misirlilərin idman yarışları təsvir edilir. Alimin fikrincə, bu yarışlar Olimpiya oyunlarının prototipi olub. Söhbət Orta çarlıq dövrünə (eramızdan əvvəl XXI-XVII əsrlər) aid Misir fironlarının XI və XII sülalələrinin qəbirlərindən gedir. Bu rəsmlərdə kamandan oxatma, güləş, yüngül atletika, top oyunu, avarçəkmə və başqa idman növləri təsvir edilib.

Alimin fikrincə, müasir sivilizasiyanın qədim yunan nailiyyətlərinə əsaslanması fikrinə baxmayaraq, yunan sivilizasiyasının bütün nailiyyətləri daha dərin köklərə malikdir. Bu, Misir sivilizasiyasıdır".

# Hərbi yeniliklər, ənənələr



### Sualtı qayıqları məhv etmək üçün yeni raket

Amerikanın "Boinq" konserni böyük hündürlüyə malik olan submarinaları məhv etmək üçün qayıqəleyhinə raketi təqdim edib. "Defenc New" nəşrinin məlumatına görə, raketə Mark-54 torpedosinin bazasında hazırlanmış HAAWC hündürdən atılma sistemi əlavə edilib. Bu sistemlə 9 min metr hündürlükdən sualtı qayıqlara zərbə endirə bilər.

Yeni sistem özündə qanadlı, quyruqlu stabilizatorlu və GPS tuşlama sistemli "naxışlı" qülləni təsvir edir. Bu sistemi torpedolarda quraşdırmaq olar, buna görə də onu raketə çevirmək də olar. Raketin buraxılmasından sonra o təyin olunmuş yerə çatır, torpedonun özü isə paraşütlə suya endirilir.

"Boinq"-in qiymətləndirməsinə görə, yeni döyüş sursatı patrul gəmilərinə böyük hündürlükdən və uzaq məsafədən düşmənin sualtı qayıqlarını məhv etməyə imkan verəcək. Raketi 9,1 min metr hündürlükdən buraxmaq olar. Onun uçuş uzaqlığı hələ müəyyənləşdirilməyib. HAAWS sistemi silahlanmaya 2017-ci ildə qəbul ediləcək.

### Pulemyot-qumbaraatan



Kiyev zurehli tank zavodu döyüş texnikasının idarə edilməsi üçün pulemyot-qumbaraatan modeli hazırlayıb. Bu haqda "Ukraynamüdafiəsənaye" dövlət konserninin mətbuat xidməti məlumat verib. Verilən məlumata görə, yeni modelin üzərində atəşin distansion idarə olunması üçün "Kaştan" kompüter sistemi quraşdırılıb. Hansı ki, bu sistem nişangahlı videokamerası olan silahları idarə etmək üçün nəzərdə tutulub. Sistemin əsas xüsusiyyətlərindən biri odur ki, universal mühafizə olunmuş kompüter elektronikası və mikroprosessor əsasında işləyir. Bununla sistemə müxtəlif növ videokameraları birləşdirmək olar. Yeni model canlı hədəfləri, nəqliyyat vasitələrini, yerüstü və aşağı məsafədən uçan obyektləri məhv etmək üçün nəzərdə tutulub. "Kaştan" sistemi gündüz vaxtlarında 1800 metrlik məsafədən 8000 metrə qədər, gecə vaxtı isə 600 metrdən 2000 metrə qədər hədəfləri müşahidə, 15 saniyə ərzində 500 metrdən 4000 metr uzaqlıqda yerləşən piyada döyüş maşınlarını aşkar edə bilər.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 471
Nüsxə 4650